**Tibb elmlər doktoru, professor, oftomoloq-şair Paşa Qəlbinurun akademik Zərifə Əliyeva haqqında xatirələri**

-Ağlım kəsəndən həmişə Zərifə xanımın və bacı-qardaşlarının adını eşitmişəm. Məsələ burasındadır ki, mənim ana nənəm Tila xanımla Zərifə xanımın anası Leyla xanımın atası Cabbar bey arasında alıb başlığı olub. İrəvanın bu iki imkanlı ailəsi hem da qonşu imişlər. Tila nənəmin oğulları - Həsən bey və Hüseyn bey xaricdə təhsil alıblar. Biri Sürixdə, digəri Brüsseldə ali məktəb oxuyub. Onlar İrəvanda seminariyanın maliyyə xərclərini temin edirmişlər. Mənim babam Hacı Məhəmmədbağır ağa Qazzazadə İrəvanın axırıncı şeyxi və ömrünün axınna kimi qazisi olub. O, öz mülkünü verərək rus dilində qızlar məktəbi açıb və bu xidmətlərinə göra Rusiya çarı onu ikinci dərəcəli Anna ordeni ilə təltif edib. Bunları deməkdə məqsədim odur ki, bu iki ailə arasındakı münasibətlər İrəvanda oldukları dövrdən yaranıb.

Azərbaycan Tibb Universitetinin kafedra müdiri, professor, Əməkdar həkim Paşa Qəlbinur görkəmli akademik Zərifə xanım İliyeva haqqında danışarkən deyib.

**Xatirə dəftəri: Əsilzadələr nəslinin nümayəndəsi**

Professorun yaddaşında tanımış oftalmoloq-alimlə əlaqədar ən unudulmaz xatirələr yaşayır. O, həmin xatirələri yada salaraq deyir: "Zərifə xanım haqqında heyacansız, hissiz, duyğusuz danışmaq olmur. Onunla bağlı xatirələri yada saldıqca tezədən həmin günlərə qayıdır, yenidən həmin günlərin oyatını hiss edirəm. Çünki Zərifə xanım son dərəcə duşşal, hassas, qayğıkeş, həkim, müəllim, ana adının ən üstün keyfiyyətlərini malik bir xanım idi. Zərifə xanım ana dilində çox təmiz danışırdı, onda milli musiqimizə çox böyük sevgi və beləcə idi ki, tərbiyəsində ilə çox gözəl idi. Səmimiyyət və xeyirxahlığı isə oğlıyaydımız idi. O, hamıya tövsiyə edirdi ki, kimsə yaxşılıq etmək istəyəndə darıxıl, hamin dəqiqədə ela, sabaha saxlama. Zərifə xanımın çox ince yumor hissi da var idi, yaxınları, çoğmaları ilə şux zarafatlar edərdi. Böyük bacısı Lezifə xanım hər dərs İlinin ilk günü peşəsinə əhlıram etməli olaraq eyilik üz masasını öpürdü. Zərifə xanım da hamin ənənələr ruhunda tərbiyə almış, hər şeye dayar veren böyük esilzadələr nəslinin nümayəndəsi idi.

SSRİ Oftalmoloğlar Cəmiyyəti İdarə heyatinin qərarı ilə dünyada oftalmologiya sahəsinde peşə xidmətləri ilə əlaqədar ilk elmi laboratoriya Bakı Kondisionerlər Zavodunu yaradılmışdı. Laboratoriyaya ən müasir aparatlar və avadanlıqlar alınmışdı. Burada yüksek elmi nəticələr əldə olundu və Fizioloji İya İnstitutunun nəzdinde olan hemin laboratoriya indiyedək fealiyyətini davam etdirir.

Zərifə xanım oftalmoloq-alim kimi bir neçə yeni elmi istiqamətin əsasını qoyub. Peşə yönümü xəstəliklərinin tədqiqi, onların korrekəsiya və müalicə üsulları məhz onun adı ile bağlıdır. Heç de təsadüfi deyil ki, o, SSRİ Elmlər Akademiyasının yüksək Averbax mükafatına layiq görülmüşdü. Görkəmli alimin meşğul olduğu elmi istiqamətlərdən biri de intiodiaqnostika idi. O bu sahəya dair ilk elmi monoqrafiyanın apancı müəlliflərindən biridir.

**Birinci xatirə: Müəllıma ehtiram nümunəsi**

Bizim mentalitetde müəllıme çox böyük hörmet va ehtiram var, ona valideyn kimi yüksək va uca dayər verilir. Man bela mənəvi-betin ən yüksək formasını Zərifə xanımda görmüşəm. Tibb Universitetin rektoru, professor Zəhra Quliyeva ila Zərifə İliyeva çox yaxın rəfiqə idilar va onlara Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor, tibb elmləri doktoru Umnisə Musayeyli dərs demişdi.

Bir hadisə indiki kimi gözümün qabağındadır. Demeli, onların çox böyük dəyər verdiyi Umnisə xanımın ayağı sınmışdı va o vaxt "Leçkomissiya" adlanan xəstəxanada müalica alırdı. Ela oldu ki, Zəhra xanım, Zərifə xanım va man ona baş çəkməyə getdik. Biz otağa girəndə Umnisə xanım ayağı sağlığa va çərpayıda uzanılı vəziyyətdə genc palata hakimi ila söhbət edirdi. Salam verdik va onların danışığının bitməsini gözledik. Umnisə xanımın hakimə danışdığı on-on beş dəqiqədə hem Zəhra xanım, hem de Zərifə xanım bir şagird kimi ayağıdıa dayanıb gözledilər. Söhbətini bitirdikden sonra Umnisə xanım onları əyləşməyə dəvət etdi. Man onda müəllim-şagird münasibətinin ali formasını, böyüyə hörmet va ehtiramın ne olduğunu bir daha dərk etdim. Hemin gün bu iki böyük hakimin, iki böyük alimin va əzəzbaycan xəzinəsi dəvranış va münasibətlərinde min illərden gelən mental dəyərlərin mübarək

# Yaşarın yaşayır

ve canlı bir nümunəsini gördüm. Şahidi olduğum bu əhvalatı, müəllim-şagird münasibətinin ali formasını bir etalon ve etika nümunəsi kimi man öz talabalarıma da danışram.

**İkinci xatirə: xanəndanin əfvi**

Zərifə xanım maclisların birinda çox maraqlı va yaddaqalan bir xatıra danışmışdı. Deyirdi ki, hemin əhvalatı atası Əziz Əliyevdən eşidib. Böyük Vətən müharibəsi illərinda meşhur xanəndə Cabbar Qaryağdıoğlunu dəyişə geden əsgərlər qarşısında herbi-vətənpərvərlik ruhunda mahnılar oxuyaraq üçün Bilacərdəki çağırış məntəqəsina devet edirmişlər. Xanəndə hemin dəvatların birinda "Yetim seşah"ı neca tesirli oxuyırsa, kövrəlıb qəherlenen çağırışçılar hamısı açıqlı məntəqenin etrafındakı yaşıl ağacıqların arasına dolışırlar.

**Bu xəber o vaxtkı respublika rehberi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birincі katibi Mir Cəfər Bağırova çatdırılır. Xanəndənin məsələsi müzakirəyə çıxarılır. Müzakire zamanı Bağırovun yanında onun çox böyük hörmet beslediyi yazıçı Məmməd Seid Ordubadi oturubqabluında**

...Yəna da Zərifə xanım danışırdı ki, atam Əziz Əliyev uzun illər Azərbaycandan kənarda Bağırıstanda işləyib. Altı uşaqdan ibarat böyük ailənin qayğıları da bütünlüklə anası Leyli xanımın üzərinə düşüb. Anası uşaqların böyüyü Lezifanın elindan tutub Mircəfər Bağırovun qabuluna gedib, xahiş edib ki, aile böyükdür, öhdəsinden tek gele bilmir, mümkündürse, onun heyat yoldaşına Azərbaycanda bir iş verilişin, qayıdıb gəlsin. Bağırov ona qulaq asandan sonra deyib ki, Leyli xanım, Əziz müəllıma bu respublikada iriyə olan bir yer var, orda da man işləyirəm.

Bağırov bunu deyenden sonra xeyli susub. Leyli xanım da gözləmədiyi bu cavabdan sonra sağlıqlaşıb eve qayıdıb.

**Dördüncüxatirə: Ulu Öndərin telefon zəngi**

Bir dəfə Zərifə xanım mene dedi ki, Heydər Əliyeviç senin elmi uğurlarını izleyir, tibbi fealiyyetinle maraqlanır. Man utanarqa ona ve Heydər Əlirza oğluna teşəkkür etdim. Bir müddət sonra Ümumitəqaqı Göz Xəstəlikləri İnstitutunun tədqimatı ile elm sahesinde Ümumittaifaqı Lenin komsomolu mükafatına layiq görülende Heydər Əliyev Moskvadan telefonla Bakıya zeng edərək meni şəxsən tebrik etdi.

Bu hadisenin üstünden illər keçenden sonra Heydər Əliyev yeniden hakimiyyəte gelib Prezident vezifesinde olanda Filarmoniyada yazıçıların qurultayında tesadüfen mene yaxın oturacqda eylədi. Görüşdük, fasilede hemin zenge ve diqqəte göra bir daha ona teşəkkür etdim. Dedim ki, "çox sağ olun ki, Siz Moskvadan zang edib tebrik etdiniz, amma o vaxt burada işləyənlərin heç biri bunu etmədi". Gülümsənerek dedi: "Ela şeylera fikir vermə! Hamı bir olmaz x?!"

**Son xatirə: akademikin nurlu sması**

Zərifə xanım Moskvada nəşr olunan o vaxtlar an nüfuzlu oftalmoloji elmi dergisi "Vestnik oftalmologii" jurnalın redaksiya heyətinin üzvü idi. Jurnalın baş redaktoru Ümumittifaq Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunun direktoru, akademik M.M.Krasnov idi. Man hemin illərdə akademikin rəhbərlik etdiyi institutun əvvəl aspiranturasında, sonralar isə doktoranturasında təhsil alırdım. Hər dəfə hamın elmi mərkəzdə, müxtəlif elmi toplantılarda olanda, ya da jurnalın redaksiya heyətinin yığıncaqlarına gelende Zərifə xanımla görüşərdik. O, hamıya mənimlə çox səmimi hal-ahval tutar, qayğılarımla maraqlanardı.

1966-cı ilin əvvəllərinə jurnalda derc olunmaq üçün maqalam var idi. Hemin vaxt Zərifə xanım xəstəxanada yatırdı. Man maqələni onun sürücüsü vasitəsi ile göndərdim ki, çap olunmaq üçün imzalasın. Sürücü gelib Zərifə xanımın sağlamlıq durumu haqqında danışanda man çox mütəəssir oldum. Bu, mənim böyük alim ve unudulmaz şəxsiyyetle son alqəşem oldu.

Bir dəfe onların böyük bacısı Lezifə xanım soyuqlamışdı. Gülərə xanım bacısına itti bir münasibetle "Lazı bacı, eybi yoxdu, keçib gedecək, teki xəstələnək, ancaq ölməyək", - dedi. Man bu zarafatın, incə yumorun canlı şahidiyəm. Aile üzvlərinin arasındakı bele ince yumorun, şux zarafatların çox şəhidi olmuşam...

Lakin teessüf ki, Zərifə xanım hemin il yatəqdən durmadı. Bu böyük alimin yoxluğunu hen ağır ve unudulmaz itkilərden biri kimi qebul edirem. Bununla bele, hemişə onun varlığını hiss edirem: meslehətləri qulağımda seslenir, nurlu sması gözlerim önünden çəkilmir. Ela bilirem ki, hardasa dayanıb mani izleyir ve hemişə de izleyəcək.

**Turan TEYMUROV,**
***AZƏRTAC-ın mühəbiri***